# ERMƏNİSTANDAKI METSAMOR ATOMELEKTRİK STANSİYASININ FƏALİYYƏTİ VƏ ƏTRAF MÜHİTƏ TƏHDİDLƏR

**Xuraman Hüseynova**

*AMEA-nın Qafqazşünaslıq İnstitutu, Bakı*
*xuramanhuseyn0107@gmail.com*

Metsamor AES bu gün dünyada mövcud elektrik stansiyaları arasında ən təhlükəli reaktorlardan biridir. Bir sıra fundamental amillər, o cümlədən təhlükəsizlik nöqteyi-nəzərindən Metsamorun fəaliyyətinin davam etdirilməsi region üçün ciddi təhlükədir. AES-də hər hansı qəza baş verərsə, yalnız Ermənistanın deyil, bütün Cənubi Qafqaz və Yaxın Şərq ölkələrinin ciddi ziyan görməsi qaçılmazdır. 1976-cı ildən köhnəlmiş texnologiya əsasında işləyən Ermənistanın Metsamor atom elektrik stansiyasının fəaliyyəti seysmik zonada yerləşən bir obyekt kimi ətraf mühitə və insan sağlamlığına ciddi mənfi təsir göstərir. 2 blokdan ibarət olan AES-in hər blokunda 1 ədəd VVER-440 tipli reaktordan istifadə olunur. Bu reaktorlar isə köhnə nəsil və qoruyucu örtüyü olmayan reaktorlardır. Metsamor AES-in 1-ci və 2-ci nüvə reaktoru 1989-cu ildə Spitak zəlzələsindən sonra bağlanmışdı, lakin Ermənistan hökuməti enerji çatışmazlığını bəhanə gətirərək 1995-ci ildə AES-in 2-ci reaktorunun fəaliyyətini bərpa etmişdir. Beynəlxalq standartlara əsasən, yüksək bal gücündə zəlzələlərin başvermə ehtimalı olan bölgələrdə atom stansiyasının inşasına icazə verilməməlidir. Ermənistandakı AES isə SSRİ dövründə heç bir ehtiyat tədbirləri alınmadan 9 bal gücündə zəlzələ yaşana biləcək bölgədə salınmışdır. 1995-ci ildə Avropa və ABŞ tərəfindən Metsamor stansiyasının təhlükəsizlik standartlarının artırılmasına milyonlarla dollar pul xərclənmişdir.

1999-cu ildə Brüsseldə Ermənistan hökuməti ilə Avropa İttifaqı arasında Metsamorun 2004-ci ilə qədər bağlanması ilə əlaqədar razılıq əldə edilmişdir. Həmçinin Ermənistan 2001-ci ildə 2004-cü ilə qədər Metsamoru bağlamaq öhdəliyi götürmüşdü. Lakin öhdəliyə rəğmən Ermənistan hökuməti bu sahədə fəaliyyətə başlamış, ölkədə yaşanan elektrik sıxıntısını bəhanə edərək stansiyanın elektrik istehsal gücünü daha da artırmışdı. Bundan sonra Ermənistan və Avropa İttifaqı əməkdaşlığının qiymətləndirilməsinə dair 2010-2017-ci illər hesabatında da Metsamor atom elektrik stansiyasının fəaliyyətinin məhdudlaşdırılması istiqamətində əməkdaşlıq üçün razılaşmalar əldə edildiyi qeyd edilmişdir. Lakin AES-in vaxtından əvvəl bağlanması və istismardan çıxarılması baş tutmamışdır. Buna səbəb kimi isə enerji təhlükəsizliyi və ekoloji

sabitlik baxımından ciddi problemlər yaratmaqda davam edən AES-ə əvəzedici gücün olmaması göstərilmişdir.

2014-cü ildə Ermənistan hökuməti “AES-in istismarının 2026-ci ilədək uzadılması haqqında” qərar qəbul etmişdir. Bu məqsədlə Rusiya hökuməti Ermənistana 270 milyon dollar kredit və 30 milyon dollar qrant ayırmışdır. Amma bu vəsaitlər AES-in tam təhlükəsiz şəkildə fəaliyyətinə heç bir halda təminat verməmişdir. Qeyd etmək lazımdır ki, 2003-cü ildə prezident Robert Koçaryanın imzaladığı Ermənistan-Rusiya “borc qarşılığında əmlak” müqaviləsinə əsasən, atom elektrik stansiyası Rusiyanın “İNTER RAO YES” QSC tərəfindən idarə olunur.

Metsamor AES-in radioaktiv tullantılarının emalı üçün Ermənistanın heç bir maliyyə mənbəyi və şəraiti yoxdur. Hər il AES-də min tonlarla radioaktiv tullantı yaranır ki, onların basdırılması Ermənistanda ərazi baxımından mümkün deyil. Maye halında olan radioaktiv tullantılar Araz çayına axıdılır. Bu isə çayın suyunun zəhərləndirilməsi və bu səbəblə Azərbaycan ərazisinin radioaktiv çirklənməyə məruz qalması ilə nəticələnir. Baş verə biləcək bütün təhlükələri nəzərə alaraq Azərbaycan dəfələrlə beynəlxalq platformalarda Metsamor AES-in fəaliyyətini davam etdirməsi ilə bağlı ciddi narahatlığını bildirmişdir.

Prezident İlham Əliyev 2016-ci il mayın 23-də İstanbulda Dünya Humanitar Sammitindəki çıxışında bütün region üçün təhlükə mənbəyi olan Metsamor Atom Elektrik Stansiyasına, Ermənistanın radioaktiv tullantılardan qanunsuz istifadəsinə toxunmuşdur. 2024-cü ilin mart ayında isə Azərbaycan Brüsseldə işə başlayan Nüvə Enerjisi Sammitinin həmsədrlərinə Metsamor AES-in fəaliyyətinə diqqət çəkən bəyanatla müraciət etmişdir. Həmçinin AES-in fəaliyyətinin davam etdirilməsi Türkiyədə də narahatlıqla izlənilir. Türkiyəli mütəxəssislərin son təhlillərinə görə, Metsamorun radiasiya ilə çirklənən suları yeraltı sular ilə qarışmaqda davam edir. Türkiyə Respublikası ötən il Ermənistanın Metsamor atom elektrik stansiyasının fəaliyyətinin dayandırılması tələbi ilə Beynəlxalq Atom Enerjisi Agentliyinə müraciət edib. Müraciətin mətnində Ermənistanın Metsamor atom elektrik stansiyasının bütün region üçün təhlükə yaratdığını bildirilmişdir. Lakin Ermənistan Respublikası Ərazi İdarəetmə və İnfrastruktur naziri Qnel Sanosyan 2023-cü ilin oktyabr ayında hökumət iclasında sualları cavablandırarkən vurğulamışdır ki, AES-də proseslər sadə və aydındır, müəyyən edilmiş standartlar var, stansiyanın bütün standartlara cavab verdiyini təsdiq edən komitələr, müxtəlif qruplar və mütəxəssislər var. O, həmçinin AES-in fəaliyyətinin uzadılması barədə də açıqlama vermişdir: *“Atom elektrik stansiyasında təhlükəsizliyin təmin edilməsi və mövcud beynəlxalq standartlara uyğun işləməsi üçün bir çox proqramlar və işlər aparılır. Hazırda AES-in 2026-cı ilə qədər, bəzi istiqamətlərdə 2031-ci ilə qədər fəaliyyət göstərmək üçün lisenziyası var”.* Bu fikirlər Ermənistanın yarana biləcək problemləri gözardı etdiyini, regionu ekoloji fəlakət təhlükəsi ilə üz-üzə qoyduğunu göstərir.

Enerji sahəsi üzrə erməni ekspertlərin məsələni şərh etməsindən onların fərqli yanaşma sərgilədiyini aydın şəkildə görmək olur. Energetika sahəsi üzrə ekspert Artur Avetisyan müsahibəsində Türkiyə və Azərbaycanın son illərdə haqlı etirazını və tələbini Ermənistana qarşı təxribat kimi qiymətləndirmişdir. O, AES-in fəaliyyətini dayandırmaması, Azərbaycan və Türkiyənin tələbinin yerinə yetirilməməsi üçün fəal diplomatiyanın aparılmasının vacibliyini qeyd etmişdir. Bu da ekoloji təhlükəsizliyinin Ermənistan üçün əhəmiyyət kəsb etmədiyini, əksinə məsələyə bu cür yanaşmanın region üçün təhlükə doğurduğunu və bu ölkənin ekoterrorun baş verməsinə şərait yaratdığını bir daha təsdiq edir.